# Yeni uğurlara

(Əvvəli 7-ci səhifədə).

əlaqələr yaradılaraq mövcud vəziyyət barədə məlumatlar əldə edilib. Artıq həmin tələbələrimiz təcrübə proqramını uğurla yerinə yetirərək öz vətənlərinə geri dönüblər.

2022-ci ildə ölkə üzrə ilk dəfə təşkil olunan “Bir Peşənin Sirri” və Göyçay şəhərində keçirilən Nar festivalında 2023-cü ildə də Mərkəzimiz uğurla təmsil olunmuşdur..

Festivalda qonaqlara Mərkəzimizdə turizm, ictimai iaşə və iqtisadiyyatın digər sahələri istiqamətində təhsil alan tələbələrin əl işlərindən ibarət sərgilər, ustad dərsləri və müxtəlif fəaliyyətlər nümayiş etdirilmişdir.

Məzunlarımız daima bizi sevindirməkdə davam edirlər. Onlar cari il ərzində paytaxt Bakı və rayonumuzun bir sıra işəgötürən müəssisələrində aşpaz, baş aşpaz, şef şirniyyatçı və s. kimi vəzifələrə təyin olunmuşdurlar.

Mərkəz işəgötürən müəssisələrlə sıx əməkdaşlıq edir, belə ki, 55-dən çox dövlət və özəl təşkilatlarla müqavilələr imzalanmışdır. Yalnız tələbələrin təcrübəsi zamanı deyil, ümumiyyətlə tədris prosesində biznes müəssisələrinin nümayəndələrinin yaxından iştirakı təmin edilir.

Cari ilin başlanğıcında Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi ilə “Qəbələ Regional Gənclərin Resurs Mərkəzi” İctimai Birliyi tərəfindən həyata keçirilən "Region gəncləri arasında peşə təhsilinin təbliği və karyeranın inkişafı akademiyası" layihəsi çərçivəsində tədbir keçirilib.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi öz fəaliyyətində peşə təhsili ilə bağlı yeniliklərin tətbiq edilməsini, işəgötürən müəssisələrlə sıx əməkdaşlığı, onların tədrisə cəlb edilməsini daima diqqətdə saxlamışdır. Bu gün peşə təhsilində qazanılmış uğurlarda Mərkəzimizin gördüyü işlərin böyük payı vardır.

2024-cü il Prezident İlham Əliyev cənabları tərəfindən Azərbaycan Respublikasında “Yaşıl dünya naminə həmrəylik ili” elan edilmişdir. Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində il çərçivəsində bir çox tədbirlər həyata keçiriləcəkdir.

Mərkəzimiz gələcək fəaliyyətində də yeni layihələrin iştirakçısı olaraq, onlarda tələbələrin və mühəndis pedaqoji kollektivin iştirakını təmin edəcəkdir.

**Reyhan MƏMMƏDOVA,**
**direktor müavini.**

# Miflər: rəvayətlər, əfsanələr

Azarbaycan xalqı qədim adət-ənənələri ilə yanaşı zəngin şifahi xalq ədəbiyyatına malikdir. Şifahi xalq ədəbiyyatı nümunələri bunu bir daha təsdiq edir ki, xalqımız hərtərəfli şəkildə tarixi mərhələlərlə bir inkişaf yolu keçmişdir. Şifahi Xalq ədəbiyyatının varlığı xalqımızın qədimdən qədim, uludan ulu bir tarixə malik ,sahib olduğunun bariz nümunəsidir. Nağıllar, əfsanələr, rəvayətlər, miflər, bayatılar, tapmacalar, zərb-məsəllər, atalar sözləri, laylalar, alqış-qarğışlar və s. xalqımızın qədim ulu keçmişindən xəbər verən ən dəyərli nümunədir. Bu nümunələr bənzərsizliyi, təkrarsızlığı ilə dünya xalqları ədəbiyyatından tamamilə fərqlənir və bədii yüksəkliklərdə dayanır.

Alqışlar hər zaman, xüsusilə də yaşlı nənə-babaların dilindən söylənilən könül açan, ürək sevindirən, həyata, yaşamağa həvəsləndirən- ən gözəl ifadələrdir. Bu gün də alqışlar söylənilir və bədii gözəlliyini qorumaqdadır. Onu da qeyd edim ki, bu gün belə alqışları eşidəndə hər bir kəsin ürəyi yaşamaq eşqilə çırpınır. Misal olaraq:

"Günün ağ, ocağın ruzili olsun".

"İşin iş olsun, mələklərə yoldaş olsun, quş olsun uçsun, su olsun axsın".

"Sən sağından da, solundan da yarıyasan".

"Yanar ocaqlı, arxası mütəkkəli oğul qazancı yeyən olasan'".

"Ağzın tamlı, yanar ocaqlı, boyun çinarlı, sözün keçərli olsun".

"Xoşbəxt balaların bəxtəvər atası-anası olasız".

"Bağlı-bağatlı, ağ günlü, ruzili, arxa-dayaqlı olasan".

Hər kəsə, cəmi xalqımıza dua etmak arzusu ilə ulularımızdan bizə-ərməğan olan zərb məsəllərə diqqət yetirək.

"Qətranı qaynadarsan olmaz bal-şəkər, cinsindən törəyən cinsinə çəkər".

"Oxuyub üfləməklə ağıl, hər danışmaqla nağıl olmaz".

"Dərdi çəkə-çəkə dərd oldun".

"Hər danışandan, har ağıl verəndən müdrik olmaz".

Bəli əsrlər keçməsinə baxmayaraq bu cür ifadələr bu gün də bədii ifadə vasitəsini, məna və dəyərini itirməmişdir. Hələ də bu dərin mənalı, dərya, xəzinə olan sözlərə böyük ehtiyacımız var.

Bəd əməllərlə məşğul olan, insanlıqdan uzaq olanlara, xain qəlblilərə edilmiş qarğışı nəzərinizə çatdırım.

"Geyindiyin paltar yorğan-döşək, yediyin yemək iynə-dərman, gördüyün yer tavan-döşəmə olsun". Uca Allah hər birimizi bu cür qarğışlardan uzaq eləsin.

"Allah üzünü "ağ" eyləsin kömür kimi".

"Günün qara, çörəyin para, yolun dar olsun".

**İndi isə miflərdən söz açaq:**

Lap qədim zamanlarda Qəbələnin Xırxatala kəndində Hüsnü nənə yaşayırmış. O hər gün səhər cağı badyani götürub meşəyə gedərmiş, badya dolu südlə qayıdarmış. Süd çox ləzzətli, xoş təamli olduğu üçün gəlin bu südü haradan gatirildiyini, hansı heyvanın südü olduğu haqqında xeyli düşünür. Gəlin qərara gəlir ki, qaynananı izləsin. Səhəri günü yenə adəti üzrə qaynana badyanı götürüb meşəyə doğru gedir. Badyanı yerə qoyur, qeyri-adi səslə haray çəkir. Bu zaman meşədəki bütün quşlar, marallar, ceyranlar Hüsnü nənənin yanına gəlir. Hüsnü nənə növbə ilə ceyran və maralları sağır. Gəlin bundan sonra südün belə təamlı, ləziz olduğunu anlayır. Qeyri-ixtiyari olaraq heyrətlənir. Bu zaman qaynana onu eşidir, çevrilib deyir ki, "nahaq sən məni izlədin". Süd dolu badyanı ceyranlar dağıdır. Hüsnü nənə də gözəl bir quş olub uçur.

Elə o gündən badya bulağın gözü olur. Yerdən duru, göz yaşı kimi bulaq qaynayır. İndi də həmin bulağın yeri Xirxatala kəndində müqəddəs məkan kimi saxlanılır. Onu da qeyd edim ki, əvvəlki illərə nisbətən bulağın suyu qurumaq üzrədir.

**Çələbi Baba (Rəvayətlər)**

Bu gün də nəslinin nümayəndələri yaşayan Hacı Çələbi baba haqqında söylənilən rəvayətlərdən biri ilə oxucularımızı tanış edək. Allah ona, onun nəslindən dünyasını dəyişənlərə rəhmət eləsin. Onu da qeyd edim ki, Hacı Çələbi Babanın nəticəsi Səyyarə nənə 81 yaşında rəhmətə getmişdir (dəfn mərasimində bütün Qəbələ iştirak etmişdir, şəxsən mən də). Allah rəhmət eləsin, sağlığında özü söyləmişdir. Bu gün də onun nəslinin nümayəndələri bu möcüzələrdən danışır.

XVIII əsrin sonlarında Qəbələdə (keçmiş Qutqaşında) indi kəndbaşı deyilən ərazidə Hacı Çələbi yaşayırmış. Çələbi baba uçan övliyalardan olmuşdur. Dəmək avqust ayında Hacı Çələbi babanın çarığının üstündə qar varmış. Qızı Zeynəb soruşur baba (onlar atalarına baba deyirmiş) bu qar hardandır. Avqust ayında bu qar haradan? Hacı Çələbi Baba deyir, bala, mən də bilmirəm. (Bütün bunları Zeynəb nənə şəxsən özü danışıb Səyyarə nənəyə). Bizim Qəbələdən (Qutqaşından) XVII əsrin sonlarında bir nəfər Məkkəyə getmişdir. Lakin iki il keçirmiş kişi Məkkə ziyarətindən qayıtmır, ailəsi gözü yolda qalır. Sən demə hər cümə günlərində Hacı Çələbi baba Məkkəyə uçurmuş. Bir gün də cümə günü baba Məkkəyə uçur. Həmin şəxsi dilənçi günündə görür, soruşur sən niyə qayıtmırsan? Hamı səni gözləyir. Deyir: -Baba məni soyublar qayıtmağa heç nəyim yoxdur, dilənib qarnımı doyururam. Hacı Çələbi baba deyir ki, əgər qayıtmaq istəsən mənim kürəyimdən bərk yapış, gözünü yum, bu haqda heç kimə birçə kəlmə də demə haaaa. Həmin şəxs babanın dediyi kimi edir. Bir də gözünü açır ki, bağının içindədir, ailəsinin, uşaqlarının evinin qarşısındadır, hərə öz işi ilə məşğuldur. Kişi həyecan va sevinclə evinə tərəf addımlayır. Kişini görən kimi göz yaşları içərisində ailəsi onunla görüşür. Amma kişidən hər dəfə soruşurlar ki, harda idin, niyə gəlmirdin, necə gəldin? Kişi heç kimə heç nə demir. Lakin bir gün kişi bütün əhvalatı olduğu kimi yoldaşına danışır. Elə söhbətini qurtarmamış kişi vəfat edir.

Onu da qeyd edim ki, Hacı Çələbi babanın əsası və oxuduğu "Quran" hələ də həmin ocaqda qorunur. Deyilənlərə görə Hacı Çələbi baba "Quran"ı Məkkədən gətirmisdir. Mən əsanı da, müqəddəs "Quran"ı da görmüşəm. Hacı Çələbi babanın nəslinin nümayəndələrindən bu gün yaşayanlar var. Babayev Mirzəağa Nuru oğlu, Babayev Tərlan-Nuru oğlu, Musabəyova Sveta va s.

**Toplayıb hazırlayan:**
**İlhamə SEYİDOVA,**
**Qəbələ Rayon Tarix-Diyarsünaslıq Muzeyinin kiçik elmi işçisi.**




QƏBƏLƏ

qəzetinə

2024-cü ilin birinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 20 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.




Dağlara qar yağıb.

## İTMİŞDİR

FHN Şimal-Qərb Regional Mərkəzinin zabiti **Abakarov Bəhərçi Rəşid oğluna** məxsus **1019646 A seriyalı iş vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Tikanlı kənd sakini **Mabudov Oktay Xan oğluna** məxsus 1988-ci ildə “Traktor və diğər nəqliyyat vasitələri”ni idarə etmək üçün verilmiş **AB 390415 nömrəli sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Nohurqışlaq kənd sakini **Qasımov Mikayıl Rza oğluna** məxsus 2007-ci ildə verilmiş **417891 nömrəli Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİ:*
Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində “Azərmedia” MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1000*